**UOT 94(479.24)**

**İLHAMİ ƏLİYEV**

# RAUF MƏMMƏDOVUN ELMİ TƏDQİQATLARINDA NAXÇIVAN TARİXİNİN ARAŞDIRILMASI MƏSƏLƏLƏRİ

*Məqalədə tarixçi-alim Rauf Məmmədovun elmi yaradıcılığından bəhs edilir. Qeyd edilir ki, alim elmi fəaliyyətinin əsas hissəsini Naxçıvanın orta əsrlər dövrü tarixinin tədqiqinə həsr etmişdir. XX əsrin 60-80-ci illərində o, bu sahədə yorulmadan çalışmış, dəfələrlə Naxçıvanda olmuş, bölgənin bir sıra orta əsr abidələri ilə bağlı araşdırmalar aparmışdır. Onların tarixi ilə bağlı müəyyən elmi və elmi-kütləvi məqalələr nəşr etdirmişdir. Namizədlik dissertasiyasını da Naxçıvan şəhərinin orta əsrlər dövrü tarixinin tədqiqinə həsr etmiş və bu işi uğurla yerinə yetirmişdir. Alimin 1977-ci ildə nəşr etdirdiyi "Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü)" monoqrafiyası qədim Naxçıvan diyarının tarixinə həsr edilmiş ən sanballı əsərlərdən biri olmuşdur.*

*Elmi fəaliyyətinin Sovet ideologiyasının hökm sürdüyü illərə düşməsinə baxmayaraq əsərlərində hər zaman milli düşüncənin, vətənpərvərliyin, türkçülüyün öndə olması Rauf Məmmədovu fərqləndirən əsas xüsusiyyətlərindən biri olmuşdur.*

**Açar sözlər:** *Rauf Məmmədov, Naxçıvan tarixi, orta əsrlər dövrü, alim, elmi tədqiqat, monoqrafiya.*

Azərbaycanın, xüsusilə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın orta əsrlər dövrü tarixinin görkəmli tədqiqatçılarından biri, tarixçi-alim Rauf Məmmədovun elmi yaradıcılığının əsas hissəsini Naxçıvan tarixi ilə bağlı sanballı tədqiqatları təşkil etmişdir. Qısa olaraq həyatı haqqında qeyd etmək olar ki, Rauf Ağabala oğlu Məmmədov 1932-ci ildə Bakı şəhərində, həkim ailəsində anadan olmuşdur. Atası Ağabala Məmmədovun II Dünya müharibəsində həlak olmasına baxmayaraq R.Məmmədov 1951-ci ildə orta məktəbi əla qiymətlərlə başa vurub, Azərbaycan Dövlət Universitetinə daxil olmuşdur. Əvvəlcə fəlsəfə fakültəsinə daxil olsa da, tarixə olan marağına görə sonra onu tarix ixtisasına çevirmiş, 1956-cı ildə universiteti fərqlənmə diplomu ilə bitirmişdir [17, s. 3]. Həmin ildən Azərbaycan Tarixi Muzeyində (indiki Milli Azərbaycan Tarixi Muzeyi) kiçik elmi işçi vəzifəsində işə başlamışdır.

1957-ci ildən "Bilik" cəmiyyətinin üzvü seçilmiş Rauf Məmmədov Azərbaycanın ayrı-ayrı bölgələrində ictimaiyyət qarşısında Vətən tarixinin müxtəlif problemlərinə həsr olunmuş əhatəli mühazirələrlə çıxış etmişdir. 1960-61-ci illərdə R.Məmmədov müəlliflər kollektivinin üzvü kimi "Azərbaycan. Tarixi və əlamətdar yerləri" toplusunun və "Azərbaycan tarixinin erkən orta əsrlər və orta əsrlər dövrü" bələdçi kitabının hazırlanmasında fəal iştirak etmiş, muzeylə bağlı bir neçə müvafiq məqalə çap etdirmişdi. 1964-cü ildə müəlliflər kollektivi tərkibində R.Məmmədovun hazırladığı "Azərbaycan tarixi muzeyi. Bələdçi" kitabı muzeyin qonaqları arasında hər zaman daha çox sevilmişdir. Bu kitab rus, ingilis, fransız, ərəb, fars, alman dillərinə tərcümə edilmişdir [1]. 1967-ci ildən Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunda fəaliyyətini davam etdirən Rauf Məmmədov "Azərbaycanın orta əsrlər tarixi" şöbəsində çalışmağa başlamış, 1968-1970-ci illərdə həmin institutun elmi katibi vəzifəsində işləmişdir. Bu dövrdə onun elmi tədqiqatlarında nəzərə çarpacaq dərəcədə dəyişikliklər baş vermişdir. Belə ki, əgər əvvəlki illərdəki məqalələrində o, abidələri maddi-mədəniyyət nümunələri kimi, təsvir edirdisə, bu dövrdən başlayaraq abidələri Azərbaycan tarixində tutduğu yer, Azərbaycan xalqının formalaşmasında oynadığı rol baxımından təhlil etmişdir [18].

1971-ci ildə muzey işi ilə bağlı elmi tədqiqatlarını davam etdirmək məqsədilə R.Məmmədov yenidən Azərbaycan Tarixi Muzeyinə qayıtmışdır. Belə ki, həmin ildə muzeyin

"Azərbaycanın qədim və orta əsrlər tarixi" ekspozisiya-fond şöbəsinin müdiri vəzifəsinə seçildikdən sonra 1988-ci ilədək, yəni ömrünün sonuna qədər burada çalışmışdır [17, s. 4]. Bu illərdə muzeydə qurulan Azərbaycan tarixi ekspozisiyasının böyük dövrünün təqdim olunması məhz R.Məmmədova həvalə olunmuşdu. Ekspozisiyanın yeni-yeni materiallarla daim zənginləşdirilməsini, nümayiş olunan eksponatlar barədə tamaşaçılara hərtərəfli və dolğun məlumatların çatdırılmasını tələb edən bu vəzifə olduqca böyük məsuliyyət tələb edirdi. Bununla yanaşı o, bu dövrdə təşkil olunan muzeyin sualtı arxeoloji qrupunun fəaliyyətini işıqlandıran bir sıra məqalələr də çap etdirmişdi [1].

Verilən tapşırıqlara ciddi yanaşması, nizam-intizamı, böyük məsuliyyəti ilə seçilən R.Məmmədova 1971-ci ildən Azərbaycan SSR Elmlər Akademiyası İctimai Elmlər Bölməsinin Elmi-Koordinasiya Şurasının elmi katibi vəzifəsi həvalə olunmuşdur [18]. Alim elmi tədqiqat işləri ilə yanaşı pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. Belə ki, o, Azərbaycan Pedaqoji İnstitutunda savadlı kadrlar yetişdirmək məqsədilə müəllimlərin təkmilləşdirilməsi sahəsində təcrübəli pedaqoq kimi, öz biliklərini əsirgəməmişdir. Bu məqsədlə o, həmmüəllif olaraq Azərbaycan tarixi üzrə üç kitabça da nəşr etdirmişdir [17, s. 4-5].

Muzeydə çalışdığı illərdə R.Məmmədov buradakı nəşrlərinin hazırlanması işində də əməyini əsirgəməmişdi. Alim gərgin elmi fəaliyyəti ilə 1973-cü ildə "Azərbaycan tarixi muzeyi" kollektiv əsərinin hazırlanmasında əhəmiyyətli rol oynamışdır. 1975-ci ildə Azərbaycan Tarixi Muzeyinin 55 illiyi münasibətilə keçirilmiş təntənəli toplantı və elmi sessiyada o, "Azərbaycanın qədim və orta əsrlər tarixinin öyrənilməsinə muzeyin töhfəsi" məruzəsi ilə çıxış etmiş, məruzə müvafiq topluda çap olunmuşdur. 50-dən artıq elmi məqalənin, respublikanın dövrü mətbuatında nəşr olunmuş 90-dan artıq elmi-populyar məqalənin müəllifi olmuş, tarix elmləri namizədi R.Məmmədovun vaxtsız vəfatı ona doktorluq dissertasiyasını müdafiə etməyə imkan verməmişdi [1].

R.Məmmədovun elmi tədqiqatlarının əsas hissəsini Naxçıvanın orta əsrlər dövrü tarixinin araşdırılması məsələsi təşkil etmişdir. Apardığı çoxşaxəli elmi araşdırmaları əsasında o, 1962-ci ildə "Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri"ndə "Yaxın Şərq və Qərbi Avropa səyyahları Naxçıvan şəhərinin orta əsrlər tarixi barədə" [15], yenə həmin ildə tarix muzeyinin daimi nəşrlərindən olan "Azərbaycan tarixi üzrə materiallar" toplusunda "Naxçıvan şəhərinin qədim dövr və orta əsrlər tarixindən" [11], 1963-cü ildə "Naxçıvan şəhərinin X-XII əsrlər tarixindən" [10] məqalələrini çap etdirmişdir. Bu məqalələrin yazılmasında alim ilk ərəb və fars dilli mənbələr, Avropa mənbələri üzərində axtarışlar aparmış, xeyli yeni faktlar üzə çıxarmışdır. Lakin R.Məmmədov təkcə yazılı mənbələrlə tədqiqat işlərini davam etdirməklə kifayətlənməyib, dəfələrlə Naxçıvan Muxtar Respublikasına səfər etmiş, bölgənin tarixi abidələri ilə yerində tanış olmuşdu. 1964-cü ildə SSRİ-də arxeoloji və etnoqrafik tədqiqatların nəticələrinə həsr olunmuş sessiyada o, "Naxçıvan şəhərinin tarixinin öyrənilməsində maddi mədəniyyət abidələri mənbə kimi" mövzusunda məruzə ilə çıxış etmişdir [1].

60-cı illərdə R.Məmmədov Azərbaycan tarixşünaslığında dərin iz buraxan bir elmi töhfəyə imza atmış oldu. Apardığı elmi tədqiqatların nəticələri əsasında o, 1965-ci ildə "Naxçıvanın orta əsrlər dövrü tarixinin oçerkləri" adlı namizədlik dissertasiyasını müdafiə etdi. Böyük uğurla keçən müdafiə Azərbaycan tarixşünaslığında Vətən tarixinin qaranlıq səhifələrini araşdırmaq arzusu ilə yaşayan yeni simanın meydana çıxmasını sübut etdi. Naxçıvanın tarixi abidələrini araşdırmağı davam edən və elmi araşdırmalarının nəticələrini geniş ictimaiyyətə çatdırmağa çalışan R.Məmmədov bu istiqamətdə silsilə məqalələr çap etdirirdi.

Onun "Möminə Xatun kimdir?" [7, s. 14-16], "Azərbaycan mədəniyyətinin unikal abidəsi" [2, s. 13-15], "Bir qalanın sirri" ("Ulduz" jurnalı, 1967, № 4), "Azərbaycanın qədim və orta əsr maddi mədəniyyətinin bəzi abidələri haqqında" ("Azərbaycan tarixi muzeyinin əsərləri", 1968, VII c.), "Əlincə yoxsa Ələncik" ("Elm və həyat", 1969, № 5), "Əlincəqalanın orta əsrlər tarixi haqqında" [4, s. 8-16], "Əlincə qalası haqqında yeni materiallar" ("1969-cu ildə SSRİ-də arxeoloji və etnoqrafik tədqiqatların nəticələrinə həsr olunmuş sessiyanın materialları"), "Naxçıvan şəhərinin XVI-XVII əsrlər tarixindən" [9, s. 163-193], "Naxçıvanda "Atabəy günbəzi" məqbərəsi haqqında yeni materiallar" [8, s. 42-51] və s. mövzularında olan məqalələri Naxçıvanın o dövrdə az məlum olan və zəif öyrənilmiş abidələrinə həsr edilmişdi.

"Naxçıvan MR-in toponimikasında türk tipli etnonimlər" ("1970-ci ildə Azərbaycanda arxeoloji və etnoqrafik tədqiqatların nəticələrinə həsr olunmuş sessiyanın materialları") məqaləsi sovet dövründə araşdırılması yasaq olan bir mövzuya – türk etnonimlərinə, Azərbaycan xalqının etnogenezində türk tayfa birliklərinin roluna həsr olunmuşdur. Geniş ictimaiyyəti Azərbaycan tarixi ilə bağlı yeniliklərlə məlumatlandırmaq məqsədilə Rauf Məmmədov kütləvi informasiya vasitələrində də bir sıra məqalələr çap etdirmişdir. Onun 1964-cü ildə "Ən-Nəşəvi təxəllüslü Azərbaycan alimləri", 1973-cü ildə "Mədəniyyətimizin xəzinəsi", 1974-cü ildə "Möminə Xatun tarixi abidəsi haqqında həqiqət", 1976-cı ildə "Əcəmi və Zahidə xatun" və başqa qəzet məqalələrində Naxçıvanın qədim və orta əsrlər tarixindən bəhs edilmişdir [1].

Alimin 1977-ci ildə "Elm" nəşriyyatında çap olunmuş "Naxçıvan şəhərinin tarixi oçerki" (orta əsrlər dövrü) monoqrafiyası Azərbaycanın bu qədim şəhərinin, müxtəlif dövrlərdə onun tərkibində olduğu inzibati dairənin orta əsrlər tarixi üçün əvəzedilməz elmi tədqiqat əsəridir. Monoqrafiyada Naxçıvanın X-XVII əsrlər tarixinin geniş şəkildə tədqiqi ilə yanaşı, burada Naxçıvan şəhərinin yaranması, ilk orta əsrlər tarixi, arxeoloji və memarlıq abidələri, orta əsrlərdə Naxçıvanda yaşayıb-yaratmış elm və mədəniyyət xadimləri haqqında bəhs edilmişdir. Qeyd edək ki, Rauf müəllimin bu əsəri bu gün Naxçıvan tarixinin orta əsrlər dövrü ilə məşğul olan hər kəsin stolüstü kitabına çevrilmişdir. Çünki burada istifadə edilmiş orijinal mənbələrin çoxluğu və əsərin lakonikliyi tədqiqatçılar üçün sanki bir icmal rolunu oynayır. Monoqrafiyanın I fəsli "Naxçıvanın orta əsrlər tarixinin tədqiqinə dair", II fəsli "Naxçıvan şəhəri qədim və ilk orta əsrlər dövründə", III fəsli "Naxçıvan şəhəri IX əsrin ikinci yarısı- XII əsrdə", IV fəsli "Naxçıvan XIII-XV əsrlərdə", V fəsli "Naxçıvan şəhəri XVI-XVII əsrlərdə", VI fəsli "Naxçıvan Azərbaycanın elm və mədəniyyət mərkəzlərindən biri kimi (X-XVII əsrlər)" tarixini əks etdirir. Alim bu əvəzsiz əsərində ilk orta əsrlərdən başlayaraq XVII əsrin sonlarınadək olan dövrdə Naxçıvan şəhərinin ictimai-siyasi vəziyyətini, onun iqtisadi həyatını, elm və mədəniyyət mərkəzlərindən biri kimi, Azərbaycan tarixində rolunu tədqiq edərək elmi dövriyyəyə daxil etmişdir.

Orta əsrlər tarixi sahəsində tədqiqatlarını davam etdirmiş R.Məmmədov doktorluq işini də Azərbaycan şəhərlərinin orta əsrlər dövrü tarixinin tədqiqinə həsr etmişdir. "Şimali Azərbaycanın şəhərləri VII-XIV əsrlərdə (sosial-iqtisadi və mədəni tarixi)" adlı doktorluq dissertasiyasında Naxçıvan şəhərinin də orta əsrlər tarixindən bəhs etmişdir. "Naxçıvan şəhərinin tarixi oçerki" adlı tədqiqat işinin genişləndirilmiş şəkildə davamı olan bu elmi araşdırmanın aparılmasına ömrünün bir çox illərini sərf etmiş alimə onu müdafiə etmək nəsib olmadı. Onun vaxtsız ölümü bu işinə mane oldu. Lakin ölümündən sonra ailəsi tərəfindən alimin son tədqiqat işi hazırlanaraq 2015-ci ildə "Elm və təhsil" nəşriyyatında 480 səhifəlik bir monoqrafiya şəklində çap etdirilmişdir.

Milli Azərbaycan Tarixi Muzeyinin XX əsrin 60-80-ci illərdəki fəaliyyətində əhəmiyyətli rol oynamış, Azərbaycan tarixşünaslığında dərin iz buraxmış görkəmli tarixçi-alim Rauf Məmmədovun elmi irsinin bəzi nümunələri hələ də işıq üzü görməmişdir.

Rauf müəllim Azərbaycanın digər bölgələrinin orta əsrlər tarixi ilə yanaşı Naxçıvanın tarixini də çox obyektiv şəkildə araşdırmışdır. Hələ sovet rejiminin hökm sürdüyü illərdə onun Azərbaycanın bu bölgəsinin orta əsrlər tarixini ayrıca bir tədqiqat əsəri kimi, belə dərindən araşdırması həqiqi vətənpərvərliyini bir daha sübut edir. Rauf Məmmədov və onun kimi Azərbaycan alimləri xalqımızın qəlbində daim yaşayacaqdır.

## ƏDƏBİYYAT


1. Əhmədov S. Azərbaycan tarixinin yorulmaz tədqiqatçısı, muzey işinin fədaisi (tarixçi-alim Rauf Məmmədovun 80 illiyinə həsr olunur). http://www.azhistorymuseum.az/index.php?mod=5&id=642.
2. Məmmədov R.A. Azərbaycan mədəniyyətinin unikal abidəsi // Elm və həyat, 1966, № 8, s. 13-15.
3. Məmmədov R.A. Əcəmi və Zahidə xatun. "Ədəbiyyat və incəsənət" qəz., Bakı, 1976, 18 dekabr.
4. Məmmədov R.A. Əlincəqalanın orta əsrlər tarixi haqqında / Azərbaycan tarixinə dair materiallar. Muzeyin əsərləri. IX c., Bakı: Elm, 1973, s. 8-16.
5. Məmmədov R.A. Əlincə yoxsa, Ələncik // Elm və həyat, 1969, № 5.
6. Məmmədov R.A. "Ən-Nəşəvi" təxəllüslü Azərbaycan alimləri. "Azərbaycan gəncləri" qəz., Bakı, 1964, 3 yanvar.
7. Məmmədov R.A. Möminə Xatun kimdir? // Azərbaycan qadını, 1966, № 2, s. 14-16.
8. Məmmədov R.A. Naxçıvanda "Atabəy günbəzi" məqbərəsi haqqında yeni materiallar / Azərbaycan SSR-də 1972-ci ildə arxeoloji və etnoqrafik tədqiqatların nəticələri. Bakı: Elm, 1973, s. 42-51.
9. Məmmədov R.A. Naxçıvan şəhərinin XVI-XVII əsrlər tarixindən / Azərbaycan tarixinə dair materiallar. VIII c., Bakı: Elm, 1973, s. 163-193.
10. Məmmədov R.A. Naxçıvan şəhərinin X-XII əsrlər tarixindən / Azərbaycan tarixinə dair materiallar. VI c., Bakı, 1963, s. 16-53.
11. Məmmədov R.A. Naxçıvan şəhərinin qədim və ilk orta əsrlər tarixindən / Azərbaycan tarixinə dair materiallar. V c., Bakı, 1962, s. 40-67.
12. Məmmədov R.A. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı: Elm, 1977, 158 s.
13. Məmmədov R.A., Onullahi S.M. Mömünə Xatun haqqında tarixi həqiqət // Tarix, ictimaiyyət, coğrafiya tədrisi, 1974, № 3, s. 44-57.
14. Məmmədov R.A. Piriyev V. Teymurun Əlincə səfəri // Elm və həyat, 1977, № 9, s. 31-33.
15. Məmmədov R.A. Yaxın Şərq və Qərbi Avropa səyyahları Naxçıvan şəhərinin orta əsrlər tarixi haqqında // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. İctimai elmlər seriyası, 1962, № 4, s. 11-22.
16. Naxçıvan ensiklopediyası: 2 cilddə. II c., Naxçıvan, 2005, 376 s.
17. Мамедов Р.А. Города Северного Азербайджана (социально-этнографическая и культурная история). Баку: Элм и Техсил, 2015, 480 с.
18. https://az.wikipedia.org/wiki/Rauf_Məmmədov_(tarixçi)

**Ilhami Aliyev**

## ISSUES OF STUDYING THE HISTORY OF NAKHCHIVAN IN SCIENTIFIC RESEARCH OF RAUF MAMEDOV

The paper examines the scientific work of the scientist-historian Rauf Mammadov. It is noted that the scientist devoted most of his scientific activity to the study of the medieval history of Nakhchivan. In the 60s and 80s of the XX century, he worked tirelessly in this area, visited Nakhchivan several times, and researched many medieval monuments in this region. He has published many scientific and popular science articles on their history. He also devoted his dissertation to studying the medieval history of Nakhchivan and completed this work. The monograph "Historical sketch of the city of Nakhchivan (medieval period)," published by the scientist in 1977, was one of the most significant works on the history of the ancient Nakhchivan region.

Despite the dominance of Soviet ideology during the period of his scientific activity, one of the main distinguishing features of Rauf Mammadov has always been that in his works, he put national consciousness, patriotism, and Turkism in the first place.

**Keywords:** *Rauf Mammadov, history of Nakhchivan, medieval period, scientist, scientific research, monograph.*

**Ильхами Алиев**

## ВОПРОСЫ ИЗУЧЕНИЯ ИСТОРИИ НАХЧЫВАНА В НАУЧНЫХ ИССЛЕДОВАНИЯХ РАУФА МАМЕДОВА

В статье рассматривается научное творчество ученого-историка Рауфа Мамедова. Отмечается, что большую часть своей научной деятельности ученый посвятил изучению средневековой истории Нахчывана. В 60-х и 80-х годах XX века он неустанно работал в этой области, несколько раз посещал Нахчыван и проводил исследования ряда средневековых памятников в этом регионе. Он опубликовал ряд научных и научно-популярных статей по их истории. Он также посвятил свою диссертацию изучению средневековой истории Нахчывана и успешно выполнил эту работу. Монография "Исторический очерк города Нахчыван (средневековый период)", изданная ученым в 1977 году, была одним из самых значительных произведений, посвященных истории древнего Нахчыванского края.

Несмотря на господство советской идеологии в период его научной деятельности, одним из основных отличительных свойств Рауфа Мамедова всегда являлось то, что в своих трудах он ставил на первое место национальное сознание, патриотизм и тюркизм.

**Ключевые слова:** *Рауф Мамедов, история Нахчывана, средневековый период, ученый, научное исследование, монография.*

*(AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 06.01.2021**
**Son variant 01.02.2021**